https://doi.org/10.59849/3006-1342.2025.2.114
UOT 913 (479.24)

*Tünzalə Həsən qızı İsmayılova*
*Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun*
*Coğrafi fikir tarixi və toponimika şöbəsi*
*Elmi işçi*
*E-mail: tunzaleismailova7@gmail.com*
*https://orcid.org/0009-0005-5677-1917*

# FÜZULİ ŞƏHƏRİNİN MİKROTOPONİMLƏRİ

*Məqalədə əsas istiqamət Füzuli şəhərinin mikrotoponimlərini toplayıb tədqiq etmək və heç bir ədəbiyyata daxil olmayan mikrotoponimlər yazıya almaqdır. Mikrotoponimlərin tədqiqində toponimik qanunauyğunluqları meydana çıxarmaq, ərazinin toponimik lüğətini tərtib etmək, müxtəlif tarixi dövrlərin toponimiyada qalan izlərini, yerli coğrafi şəraitin toponimiyada əks olunması faktlarını meydana çıxarmaq məqalənin əsas məqsədidir.*

*Açar sözlər:* Azərbaycan, Qarabağ, Füzuli şəhəri, mikrotoponimlər, toponim, oykonim, antropotoponim

## *Giriş*

Toponimlər bir xalqın tarixi yaddaşı, dil xüsusiyyətləri, yaşayış məkanları və mədəni kimliyini özündə daşıyan dəyərli məlumat mənbələridir. Azərbaycanın zəngin toponim sistemi içərisində Füzuli rayonu özünəməxsus yer tutur. Bu rayonun kənd, qəsəbə, dağ, çay və digər coğrafi obyektlərinin adları həm qədim türkdilli toponimik qatlara, həm də sonrakı mərhələlərdə baş verən siyasi və mədəni dəyişikliklərə əsaslanır. Bu məqalədə Füzuli rayonunun toponimlərinin mənşəyi, semantikası, tarixiliyi və onların daşıdığı ictimai-mədəni məna araşdırılır.

Toponimiya coğrafi adların mənşəyini, semantik inkişafını, tarixini və funksiyalarını öyrənən elmdir. Azərbaycanın zəngin toponimik xəritəsində xüsusi yer tutan bölgələrdən biri də Füzuli rayonudur. Bu ərazidəki şəhər və kənd adları yalnız coğrafi məkanları deyil, həm də xalqın mədəni yaddaşını, tarixi yaddaşını və etnoqrafik xüsusiyyətlərini əks etdirir. Bu baxımdan, Füzuli şəhərinin toponimiyası həm tarixi, həm də mədəni baxımdan olduqca maraqlı və əhəmiyyətlidir.

Füzuli şəhəri XIX əsrin sonlarında salınmış və ilk zamanlar Karyagin adlanmışdır. Sovet dövründə isə Qaryagin kimi də işlənmişdir. 1959-cu ildə şəhərin adı Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük klassik şair Məhəmməd Füzulinin şərəfinə dəyişdirilmiş və Füzuli adlandırılmışdır. Bu ad dəyişiklikləri Azərbaycanın sovet dövrü ideoloji və mədəni siyasətinin bir parçası olaraq mədəni irsin qorunması və təbliğinə xidmət etmişdir. Şəhərə bu adın verilməsi həm ədəbiyyata, həm də milli kimliyə verilən önəmi əks etdirir.

Füzuli şəhərinin adı təkcə bir coğrafi məkanın deyil, həm də milli irsin, mədəni yaddaşın simvoluna çevrilmişdir. Qarabağ münaqişəsi nəticəsində 1993-cü ildə Füzuli şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, lakin 2020-ci ildə - 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. Azadlıqdan sonra şəhərin adı yalnız tarixi deyil, həm də qürurverici qəhrəmanlıq simvolu kimi daha geniş anlam qazandı.

Toponimikanın alt sahəsi olan mikrotoponimiya isə yaşayış məntəqələrinin daxilindəki kiçik ərazi vahidlərinin - küçə, bulaq, təpə, çay, bağ, meydan, körpü, qəbiristanlıq və s. -

adlarının öyrənilməsini əhatə edir. Füzuli şəhərinin mikrotoponimləri həmin bölgənin sosial-mədəni tarixini, əhali yaddaşını, yerli dil xüsusiyyətlərini və bəzən etnoqrafik xüsusiyyətlərini əks etdirən canlı izlər kimi qiymətləndiril ə bilər.

Bildiyimiz kimi mikrotoponimlər xalqın yaratdığı mənəvi sərvətlərdən biri olub, əsas etibarı ilə insanların hafizəsində yaşayır, nəsillərdən-nəsillərə keçir. Bu qəbildən yaranmış toponimlər əraziyə bələd olan yaşlı sakinlərin verdiyi informasiya əsasında qeydə alınıb.

Mikrotoponimlər xırda coğrafi obyekt adları həmin ərazidə məskunlaşan əhalinin məşğuliyyəti, təsərrüfat fəaliyyəti hər bölgənin, kəndin, obanın və s. coğrafiyası tədqiqata cəlb edilir. Azərbaycan Respublikasının cənub-qərb bölgəsində yerləşən Füzuli rayonu ərazisi də, xüsusli əhəmiyyət daşıyan mikrotoponimlərlə (yer, yurd və bulaq s.) zəngindir.

Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd (Hadrut, Martuni), Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Füzuli şəhərinin keçmiş adı 1403-cü ildən 1905-ci ilədək adı Qarabulaq olub. Qarabulaq kəndi Səfəvilər dönəmində Dizaq qəzasına bağlı şenliklərdən biri idi. Kənd ərazisi Səfəvilər dövlətinin Cavanşir elinin qışlağı olub. XIX əsrin əvvəlində çar hökumətinin köçürmə siyasəti nəticəsində mərkəzi quberniyalardan köçürülən molokanlar Qarabulaq kəndi ərazisində məskunlaşmışdılar [1, s. 54]. Bu səbəbdən Qarabulaq kəndi XIX yüzilin sonu, XX yüzilin əvvəllərində el arasında "Malaqan bazarı" adlanırdı. 1905-ci ildə yaşayış məntəqəsi XIX əsrin əvvəllərində çar polkovniki Karyaginin adı verilmişdir. Karyagin böyüyüb, şəhər statusu aldı. 1906-cı ildən 1918-ci ilədək qəza, sonra isə rayon mərkəzi oldu. Az bir müddət yaşayış məntəqəsi inqilabçı B.Sərdərovun şərəfinə Sərdar adını daşımışdır. 1mart 1929-cu il tarixdə Azərbaycan Xalq Komissarları Soveti inqilabçı Bünyad Sərdarovun vəfatının 10 illiyi ilə əlaqədar olaraq Qaryagin şəhərinə Sərdar adı verildi. Amma SSRİ Xalq Komissarları Sovetinin təzyiqi ilə Azərbaycan SSR XKS 1931-ci ildə öz əvvəlki qərarını ləğv edib Sərdar adı əvəzinə Qaryagin adını bərpa etdi. 1959-cu ildə böyük şairimiz Məhəmməd Füzulinin 400 illik yubileyi münasibətilə rayonun adı dəyişdirilərək, Füzuli rayonu adlandırılmışdır. Rayon 8 avqust 1930-cu ildə təşkil olunmuşdur [4, s. 87]. Oykonimlərin müəyyən bir qismini xatirə-memorial xarakterli adlar təşkil edir.

Azərbaycan toponimiyasında aparılan tədqiqatlar göstərir ki, oykonimlərin (yaşayış məntəqələrinin) bir qismini xatirə-memorial adlar təşkil edir. Füzuli rayonu və şəhər adı da memorial oykonimlərdən (dahi Azərbaycan şairi Məhəmməd Füzulinin adı ilə əlaqədar) hesab olunur.

Füzuli rayonunun ərazisi 1386 km², əhalisi isə təxminən 125 min nəfərdir. Rayonda 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri vardır.

2020-ci ilə qədər rayonun 1993-94-cü illərdə işğaldan azad olunmuş ərazilərində 13 qəsəbə və 24 kənd mövcud olub. Qəsəbələrdən 12-si ("Qayıdış" qəsəbələri) ərazidə yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. 2021-ə qədər ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır. Rayon dəniz səviyyəsindən 400-900m hündürlükdə yerləşir.

**Mövzunun aktuallığı:** Füzuli şəhərinin mikrotoponimlərini toplayıb tədqiq etmək, toponimik qanunauyğunluqları meydana çıxarmaq, ərazinin toponimik xarakteristikasını vermək və bu günə kimi tədqiq olunmayan mikrotoponimlər haqqında məlumat vermək. Tarixdən məlumdur ki, Azərbaycanın ən qədim sakinləri Füzuli rayonu ərazisində Quruçay vadisində yaşamışlar. Füzuli rayonu Azərbaycanın cənub-qərbində, Köndələn, Quruçay və Qozluçay vadilərində, dağətəyi ərazidə yerləşir. Füzuli rayonunun ərazisi ən qədim insan məskənlərindən biridir. Quruçay mədəniyyəti, Azıx mağarası (Azıxantrop), Qaraköpəktəpə, Kültəpə, Meynətəpə, Qarabağ kurqanları Füzuli rayonunun qədim olduğunu təsdiqləyir.

**Azıx mağarası.** Qədim insan məskənlərindən hesab edilən Azıx mağarası Füzuli şəhərindən 15 km qərbdə, Quruçayın sol sahilində yerləşir. Quruçayın sahilində yerləşdiyinə görə mağaradan aşkar edilən qədim daş dövrü nümunələrinin təhlilini tədqiqatçılar "Quruçay mədəniyyəti" adlandırırlar. Quruçay mədə niyyətinin 1,2 milyon il bundan əvvəl başlandığı, 700 min il əvvəl sona çatması müəyyən olunub. Quruçay vadisi, Azıx və Tağlar mağaraları yerləşən ərazidən ibtidai insanlar əmək alətləri hazırlamaq üçün xammal mənbəyi kimi istifadə etmişlər [2, s. 18]. Ölkəmizin ərazisində Quruçay mədəniyyəti ən qədim arxeoloji mədəniyyət hesab olunur. Tədqiqatlar nəticəsində Quruçay mədəniyyəti dövründə qədim insanların ovçuluq və yığıcılıqla məşğul olmaları müəyyən edilmişdir. Azərbaycan ərazisində bəşər tarixi Quruçay mədəniyyəti dövründən başlanır.

**Qaraköpəktəpə.** Füzuli şəhərinin şimalında, Göndələnçayın sağ sahilində 50 metrə yaxın hündürlüyü olan təpə Qaraköpəktəpə adlanır. Bəzi mənbələrdə adı Taxtavus kimi də göstərilir. Burada vaxtilə çoxtəbəqəli qədim yaşayış yeri olmuşdur. Qaraköpəktəpədə müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Məşhur arxeoloq alimlər Ə.Ələkbərovun, professor Qüdrət İsmayılovun axtarışları nəticəsində Qaraköpəktəpə abidəsində 10 min il əvvəl yaşayış məskəni olduğu sübuta yetirilmişdir [10, s. 32].

**Qarabulaq kurqanları** - Füzuli şəhərindən 1-1,5 km şimal-şərqdə, Kondələnçayın sağ sahilində orta və son tunc və erkən dəmir dövrünə aid qəbir abidələr. 1965-ci ildə Qarabulaq kurqanlarının yerləşdiyi ərazidə orta tunc dövrünə aid qəbirlər də aşkarlanıb. Kurqan "Qarabulaq" (Gur sulu bulaq" mənasında) adlı yerdə yerləşdiyinə görə belə adlandırılmışdır. Türk mənşəli "kurqan" sözünün mənası "torpaq, ağac və ya daşdan düzəldilmiş, yarımkürə formalı qədim qəbirüstü abidə" deməkdir [3, s. 26]

**Meynətəpə** - Füzuli şəhərinin mərkəzindən 5 km şimal-şərqdə, Köndələnçayın sağ sahilində yerləşən yaşayış yeri. Köndələnçayın sağ sahilində, Qaraköpəktəpədən 6 km şərqdə yerləşən Meynətəpə yaşayış yeri üç təpədən ibarətdir. Ətrafında üzümlük sahələri olduğu üçün toponim el arsında "Meynətəpə" adı almışdır [8, s. 54].

**Canqulu dağı**. Köndələnçayın aşağı axarından sol tərəfdədir. El arasında bu yüksəkliyə Canqulutəpə də deyirlər. Oronim Canqulu şəxs adı ilə əlaqədardır.

**Dəyirmantəpə**. Füzuli rayonu ərazisində, Araz çayının sahilində yerləşən dağ Dəyirmantəpə dağı adlanır. Dağa Dəyirmantəpə toponiminin adının verilməsi dağın ətəyində keçmişdə dəyirman olması ilə əlaqədardır. Dəyirman sözü ilə əlaqədar oronimlərin çoxu oykonimlərə çevrilib [4, s. 67].

**Günəştəpə** - Eneolit və Erkən Tunc dövrünə aid olan yaşayış yeri Füzuli şəhərinin şimalında, Köndələnçayın sağ sahilində yerləşir. Abidənin ilk tunc dövrünə aid mədəni təbəqəsinin qalınlığı 2 m-dir. Bu təbəqədə qaya parçaları və çay daşlarından tikilmiş, gil məhlulu ilə bərkidilmiş dairəvi formalı yaşayış binasının qalıqları aşkar olunmuşdur. Binanın diametri 7 m dir. Divarların ətrafında xeyli suvaq və çiy kərpic parçalarının qeydə alınması, divarların daş təməl üzərində çiy kərpicdən tikildiyini göstərir. E.ə. II minillikdə Günəştəpə qəbiristana çevrilmişdir. Oronim iki - "Günəş" və "təpə" terminlərindən ibarətdir. Həmin ərazini Günəş şüası çox tutduğu üçün əraziyə Günəştəpə deyilir. Tədqiqatlar Günəştəpənin e. ə. V-III minilliklərdə oturaq əkinçi-maldar əhaliyə məxsus olduğunu göstərir [2, s. 43].

**Xantəpə** - E.ə. V-II minilliklərə aid çoxtəbəqəli yaşayış yeri Füzuli şəhərinin cənub-şərqində yerləşir. Toponim "xan" və "təpə" sözlərindən ibarətdir. "Xanın təpəsi" mənasındadır. Titul bildirən xan komponentinə təpə termini birləşərək Xantəpə oronimini yaratmışdır.

**Quştəpədağı.** Köndələn çay ilə Quruçayın arasında yerləşir. Orada çoxlu quşun olması ilə əlaqədar olaraq dağ belə adlandırılmışdır [7, s. 62].

**Zərgərtəpə.** Füzuli şəhərinin mərkəzindən 3 km şimal-qərbdə, dağətəyi ərazidə, Köndələnçayın sağ sahilində yerləşir. O, son Tunc dövrünə aid 1 hektar sahəsi olan yaşayış

yeridir. Zərgərtəpə abidəsi 1965-ci ildə qeydə alınıb. Zərgərtəpə tapıntıları bunu deməyə əsas verir ki, bu ərazilər orta və ondan qabaqlar insanların yaşayış məskənləri olmuşdur [5, s. 29].

**Yumurta təpə**.Füzuli şəhərindən 5 km məsafədə yerləşir. Yumurta təpə oronimi həmin təpənin zahirən yumurtaya bənzəməsi ilə əlaqədar olaraq belə adlandırılmışdır.

**Uzuntəpə.** Rayon mərkəzindən 9 km şimal-şərqdə, Köndələnçayın sağ sahilində yerləşir.O, e.ə. III minilliyə - ilk Tunc dövrünə aid yaşayış yeri hesab olunur. Uzuntəpə oronimindəki uzun termini obyektin relyef formasını və quruluşunu mənalandırır. Uzuntəpə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur [9, s. 43].

**Məngələnata dağı.** Rayon mərkəzindən 3 km qərbdə, hündürlüyü 720 metr olan dağ. Dağ özünün ən hündür yerində indi də xarabalığı qalan orta əsr abidəsi Mingələn (Məngələn) ata adlı qəbir-pirin adını daşıyır. "Min", "Minq" türkdilli tayfaları vaxtilə burada məskən salmışlar. Onların Azərbaycanda məskunlaşması Teymurləngin hücumları ilə əlaqələndirilir. Məngələnata dağı oronimi "minq" lavtasının adını bir tarixi abidə kimi yüz illərdir ki, qoruyub saxlayır [1, s. 87].

**Haramı düzü**. Füzuli şəhəri yaxınlığında böyük bir sahəni əhatə edir. Burada Qayıdış qəsəbəsi salınıb.

**Cinqobu.** Füzuli şəhərində, rayon mərkəzinin 1 km şərqində, çökəklikdə yerləşir. "Qobu" termini "dərə, çökəklik, həmişə su basan yer, arx" mənasındadır. Bəzi tədqiqatçılar oronimi orta əsrlərdə şimaldan Zaqafqaziyaya gəlmiş cin (çen) adlı türk tayfasının adı ilə, bəziləri isə mövhumi məxluqun adını bildirən cin sözü ilə, bəziləri əski türk dilində relyef bildirən cin formantı kimi ("sıldırım dağ yarğanı") sözü ilə bağlayırlar. "Cin" komponenti Azərbaycan mifologiyasının tərkib hissələrindən biridir. Bəzi mənbələrdə cin/çin adlı qədim türkdilli tayfa adına da rast gəlirik. Cin (cinlər) qəbiləsi qədim türkdilli peçeneq tayfasının kəngərli tirəsinin bir qoludur.

**Fioletovka.** Füzuli şəhərinin mərkəzindən 1 km qərbdə, şəhərin yuxarı qərb hissəsində yerləşən yaşayış məntəqəsi Fioletovka adlanır. Fioletovka ərazisindəki küçə Rusiyada inqilab hərəkat xadimi, 1918-ci ilin sentyabrda Bakı komissarları sırasında güllələnmiş İvan Timofeyeviç Fioletovun (1883-1918) adı ilə adlandırılmışdır. Həmin yaşayış məntəqəsində XIX əsr Rusiyanın mərkəzi quberniyalarından köçürülmüş rus ailələri də məskən salmışlar. Bəzi mənbələrə görə yaşayış məntəqəsinin keçmiş adı Qızılqışlaq olmuşdu [4, s. 72].

**Rus qəbirstanlığı.** Fioletovka kücəsində salınmışdı. Erməni işğalı zamanı erməni separatçıları tərəfindən darmadağın edilmiş ərazilərin biri də Fioletovka ərazisidi. Bu hadisələr zamanı həmin yaşayış məntəqəsi yerlə yeksan edilmiş, buna baxmayaraq yerli camaat arasında həmin ərazi Fioletovka və Rus qəbirstanlığı adı ilə tanınır. Vaxtilə Füzuli şəhərinin qərbində yerləşən Fioletovka adı ilə adlanan ərazidə Azərbaycanla birgə miliyyətcə rus molokanlar say etbarilə çoxluq təşkil edirdi, bu səbəbdən qəbirstanlğa rus qəbirstanlığı deyilirdi.

**Sovet küçəsi.** XIX əsrdə yaranmış küçə. Sovet imperiyası quruluşunun adı verilmişdi.

**Xanlar küçəsi**. Xanlar Həsən oğlu Səfərəliyev Rusiya Sosial Demokrat Fəhlə Partiyasının üzvü olub küçə də onun adı ilə adlandırılıb.

**PMK 44 küçəsi, PMK 15** yaşayış yerləri olub.Bu küçədə tikinti müəsissəsi, tikinti tresti olub.Sovet dövründə "PMK" Полковникский Междуколонная Конструксия" (rus dilindən tərcümədə "Polkovniklərin Aralıq Tikintisi" kimi tərcümə olunur.

**Müəllimlər evi**. İlk müəllimlər evi XIX əsrdə inşa olunub.

**"Məşədi Həbib" hamamı.** XIX əsrdə tikilmişdi. Hamam onu tikdirən şəxsin (Məşədi Həbibin) adını daşıyır.

**Tut bağı.** Tut bağı oradakı tut ağaclarının adı ilə adlandırılmışdır.

**Hacı Ələkbər məscidi.** Füzuli şəhərinin mərkəzində yerləşir. Deyilənə görə bu məscidi dövrünün varlı və nüfuzlu şəxsiyyəti sayılan Hacı Ələkbər bəy inşa etdirmişdir. Məscid 1889-cu ildə məşhur memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir [9, s. 54].

**İmambağı.** Füzuli şəhərindən xüsusi məhəllə, yaşayış məntəqəsi İmambağı adlanır. Adına bəzən İmanbağı da deyirlər. Bəzi yerli məlumatlara görə, ərazi çox-çox əvvəllər İman adlı bir kişinin bağ və bostan yeri olub. İmambağı toponimini bəzi tədqiqatçılar "İmam övladları nəslindən olan bir çox ailələrin bağ yeri" kimi də mənalandırırlar.

**Köndələnçay su anbarı.** Füzuli rayonu ərazisində, əsasən Köndələnçayın üstündədir. O, üç su anbarından ibarətdir. Bu su anbarları 1950, 1962, 1980-ci illərdə istifadəyə verilmişdir. Köndələnçay su anbarına Quruçaydan da su axıdılır.

**Qoşa bulaq.** Füzuli şəhərində olan hidronim qoşa və bulaq sözlərindən ibarətdir. Toponimin tərkibində qoşa sözü həmin bulaqla yanaşı, ərazidə digər bulağın (2 dənə) olması ifadə edir.

**Bəhmən bulağı.** Füzuli şəhəri ərazisində qeydə alınan hidronimlərdən biri Bəhmən bulağı adlanır. Bulaq onun çəkdirən şəxsin Bəhmənin adını daşıyır.

**Şır-şır.** Füzuli rayon mərkəzinin 1 km şimal hissəsində süni yaradılan, Köndələn gölünə təxminən 35 m hündürlükdən tökülən çay, şəlalə.Səs-küylü, şırıltılı olduğu üçün yerli əhali bu şəlaləyə "Şır-şır" adlandırılmışdır.

**Seyidlər yurdu, seyidlər bulağı.** Füzuli şəhəri ərazisində qeydə alınan mikrotonimlərdən biri də Seyidlər yurdu adlanır. Seyidlər yurdu toponimi adını daşıdığı yaşayış məntəqəsinin (yurdun) vaxtilə mənsub olduğu zümrəni (titulu) göstərən seyid terminindən və yurd komponentindən ibarətdir. Ərazidə Seyidlər bulağı adlı mikrohidronim də qeydə alınmışdır [4, s. 49].

**Baş bulaq**. Füzuli şəhərində 10 km qərbdə yerləşir. Hidronim yaxınlığındakı bulaqlardan yüksəklikdə yerləşdiyi üçün belə adlandırılmışdır.

*Nəticə*

Füzuli rayonunun toponimik araşdırması göstərir ki, bu bölgənin coğrafi adları yalnız fiziki məkanları deyil, həm də xalqın tarixi yaddaşını, etnik-mədəni kimliyini və dil qatlarını əks etdirir. Rayonun toponimləri qədim türk etnonimləri, şəxsi adlar, təbiət hadisələri və ictimai-siyasi proseslərin təsiri altında formalaşmışdır. Müasir dövrdə bu toponimlərin qorunması və tədqiqi milli-mədəni irsin saxlanması baxımından böyük əhəmiyyət daşıyır.

Şəhərinin mikrotoponimləri yalnız lokal coğrafi adlar deyil, həm də tariximizin, mədəniyyətimizin və dilimizin bir parçasıdır. Bu adlar xalqın yaşayış tərzini, ictimai münasibətləri və təbiətlə bağlılığı əks etdirir. Hazırda şəhərin yenidən qurulduğu bir zamanda mikrotoponimlərin öyrənilməsi və qorunması həm elmi, həm də mədəni-mənəvi vəzifə kimi çıxış edir.

Füzuli şəhərinin mikrotoponimiyası üzərində aparılan araşdırmalardan aşkar olur ki, rayon toponimiyasında Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair maraqlı və zəngin faktlar saxlanmışdır.

Füzuli şəhəri ərazisindən 32 toponim (o cümlədən 12 oykonim,8 hidronim, 12 oronim, 5 sair toponim) qeydə alınmışdır.

Füzuli şəhərinin toponimiyası üzərində aparılan araşdırmalardan məlum olur ki, şəhər toponimiyasında Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair maraqlı və zəngin faktlar saxlanmışdır. İlkin toponimik araşdırmalar göstərir ki, Füzuli şəhərində oronimlər üstünlük təşkil edir ki, bu da ərazinin coğrafi şəraiti, relyefi ilə əlaqədardır.

ƏDƏBİYYAT

1. Abbasova M.Ə., Bəndəliyev N.S., Məmmədov X.H. Böyük Qafqazın cənub-şərq hissəsinin toponimiyası. Bakı: Elm, 1993, 457 s.
2. Qeybullayev Q.Ə. Qarabağ (Etnik və siyasi tarixinə dair), Bakı 1990, 248 s.
3. Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 140 s.
4. Mamayev H.M. Azərbaycan SSR-nin rayonları, şəhərləri, şəhərlərin yaşayış məntəqələri, kəmd sovetləri və başqa yaşayış məntəqələrinin adlarının düzgün yazılışı. Bakı: 1950, 542 s.
5. Mollazadə S.A. Coğrafi adlar və Azərbaycan dilinin tarixi. Bakı: 1973, 247 s.
6. Mollazadə S.A. Azərbaycan dilində coğrafi adlar necə yaranmışdır. Bakı: 1974, 473 s.
7. Nazim Tapdıqoğlu (Vəlişov). Füzuli rayonu və onun toponimiyası. Bakı, 2006, 456 s.
8. Yüzbaşov R.M. Azərbaycan coğrafiya terminləri (tədqiqlər). Bakı: 1966, 264 s.
9. Yüzbaşov R., K.Əliyev., Ş.Sədiyev. Azərbaycanın coğrafi adları, Bakı: 1972, 458 s.
10. Гейбуллаев Г.А., Топонимия Азербайджана, (историко-этнографическое исследование), Баку, Элм, 1986, 384 s.

УДК 913 (479.24)

*Тунзале Гасан кызы Исмаилова*
*Институт Географии имени академика Г.А.Алиева*

МИКРОТОПОНИМЫ ГОРОДА ФИЗУЛИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Карабах, Город Физули, микротопонимы, топоним, ойконим, антропотопоним

Основная цель статьи – собрать и изучить микротопонимы города Физули, зафиксировать микротопонимы, не вошедшие ни в одну литературу, выявить топонимические закономерности в изучении микротопонимов, составить топонимический словарь района, выявить следы различных исторических периодов в топонимике, выявить факты отражения в топонимике местных географических

UDC 913 (479.24)

*Tunzale Hasan Ismailova*
*Institute of Geography Named After Academic H.A.Aliyev*

MICROTOPONYMS OF THE CITY OF FIZULI
*SUMMARY*

*Key words:* Azerbaijan, Karabakh, Fuzuli city, microtoponyms, toponym, oikonym, anthropotoponym

The main objective of the article is to collect and study microtoponyms of Fuzuli, to record microtoponyms that are not included in any literature, to identify toponymic patterns in the study of microtoponyms, to compile a toponymic dictionary of the region, to analyze traces of various historical periods in toponymy, to discern evidence of local geographical features in place names.

***Daxil oldu: 12.06.2025-ci il***